AZƏRBAYCAN RESPUBLİKA
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ
F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI
ELMİ-METODİKA ŞÖBƏSİ

# Ən şərəfli peşə




***5 oktyabr Müəllim günü münasibəti ilə***
***( metodik vəsait )***

**Bakı - 2013**

**Redaktor: Şəhla Qəmbərova - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtib edəni: Nərgiz Məcidova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor: Məmmədli Ruhiyyə - F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri.**

## Tərtibçidən

Hər il ənənəvi şəkildə qeyd edilən müəllim günü 1965-ci il SSRİ Ali Sovetinin 29 sentyabr tarixli qərarından sonra keçirilib. Müstəqillik qazandıqdan sonra isə bu peşə bayramı hər il oktyabır ayının ilk bazar günü qeyd edilir. Təqvimdə rəsmi bayram günü kimi qeyd edilməsədə, müəllim ordusu üçün bu gün elə əsl bayramdır. Bu bayram bu gündə var, sabahda olacaq. Çünki Azərbaycan cəmiyyətində müəllim peşəsi həmişə hörmətli peşələrdən biri olmuşdur. Gənc nəslin müstəqil həyata hazırlanması, onun dünyagörüşünün formalaşması, yəni gələcək mütəxəsisin ilk hazırlığı orta məktəb illərindən başladığı üçün hər bir valideyin məktəb yaşına çatmış övladını müəllimə etibar edir. Əsl müəllim isə həmişə əsl insan, yaxşı şagird yetişdirməyə çalışır. Adı həmişə uca tutulan müəllimlərimizin peşə bayramı münasibəti ilə F. Köçərli adına Respublika uşaq kitabxanasında bir çox tədbirlər keçirə bilərik. Bunun üçün kitabxananın elmi-metodika şöbəsi tərəfindən hazırladığımız vəsaiti sizə təqdim edirik. Bu vəsait ulu öndər Heydər Əliyevin müəllim haqqında söylədiyi fikirlərlə başlayaraq giriş hissəsi və keçiriləcək tədbirlərdən ibarətdir. “ Keçiriləcək tədbirlər ” bölməsində mövzu ilə bağlı kitabxanada keçirilə biləcək tədibrlər (icmallar, söhbətlər, tamaşa-baxış müzakirəsi. şeir, inşa müsabiqəsi və ədəbi bədii gecə) haqqında məlumat verilmişdir. Burada həmçinin əsl müəllimin pedoqoji qabiliyyətləri, insani keyfiyyətləri verilmişdir. Hamıya ömürlərindən pay verən müəllimlərimizə hər zaman can sağlığı, üzlərində təbbəssüm arzu edirik. Bayramınız mübarək əziz müəllimlərimiz.

" Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir". Gələcək gənclərin, gənclər isə Müəllimlərin əsəridir!!!

**Heydər Əliyev.**

Müəllim – zülməti yaran nur, cəhaləti elmin qılıncıyla yox edən, elmi üstün olan, qəlbiylə insanlara yaxınlaşan, böyük örnək, insanlara elm öyrətməklə həyatını şam kimi əridən, qəlblərdə əbədi həyat quran şəxsiyyətdir. O, hikkədən kənar, qürurdan uzaq, bar verən ağac kimi başıaşağı, gülməsi təbbəssüm, millətin xalqın yükünü çiynində daşıyan fədaidir. İdeallığa doğru gedən, ancaq yerişini dəyişməyən, heç bir qarşılıq gözləmədən könül saraylarını inşa edən, ciddiyyəti qəlbinə hakim edən, ancaq təkəbbürlənməyən, peşəsini sevən, sevməyi sevən, nifrətə nifrət edən bir anadır. O, xətaları görən ancaq, sahibinə söyləməyən, əməlləri ilə onlara örnək olmağa çalışan bir insandır. Onun örnəyi elə onun həyatıdır. Əsl müəllim bildikləri ilə kifayətlənməyərək hər gün elmin bağçasında yeni-yeni biliklər öyrənər. Bildiklərini şagirdləri ilə paylaşmağı özünə sevinc hesab edər. İnsani münasibətlərdə insanlara insan olduğu üçün dəyər verər. Müəllim insan memarı, ümid qəhrəmanı, məhəbbət dolu bir qəlb, ismətliylə bir örnəkdir. Elə bir örnək ki uşaq təfəkkürümüzdə saf, təmiz, əxlaqlı mehriban bir qəhrəmana çevrilərək bütün həyatımız boyu əməllərimizdə yanımızda olan bir örnək. Anadan sonra yer üzünün fədaisi müəllimdir. İnsan məxluq, elm isə Allahın mülküdür. Müəllim isə elm mülkünün Allahın bəndəsinə ötürücüsüdür. Ən böyük ötürücü isə Hz.Muhəmməd (səllalahü aleyhi və alihi salam) dır. “ Alimlər mənim varislərimdir ”, “ Alimin ölümü yerdə aləmin ölümüdür ” deyən peyğəmbərimiz, elm sahiblərinin alim olmasında da müəllimin roluna müstəsna əhəmiyyət vermişdir. Müəllim könül insanı, qəlb dostu, həqiqət carçısı bəşəriyyətin iftixarı dünya və axirət günəşidir. O, dinləyicisinin mənəvi dünyasına baş vuraraq onun nəfsinin təmizliyini, əxlaqının gözəlliyini təmin edər. Beləliklə müəllim əməyi sayəsində dil qəlbin tərcümanına, göz də qəlbin aynasına çevrilər. İnsan onun vasitəsi ilə kainatda bütövləşər, özünə yer tapar. Məktəb – müqəddəs bir məbəddir. Müəllim isə burada maarif, fəzilət, sevgi qapılarını insanların üzünə açandır. Hər il oktyabrın 5-i bütün dünyada Müəllim Günü kimi qeyd olunur. Hələ Keçmiş Sovet İmperiyasında 1965-ci il qərarı ilə qeyd edilən

müəllim günü ölkəmizdə müstəqillik qazandıqdan sonra isə oktyabrın ilk bazar günü daha geniş qeyd edilir. Bu gün müəllimlər öz peşə bayramlarını keçirirlər. Bu gün hər kəs özünün ibtidai məktəbdə, birinci sinifdə oxuduğu illəri xoş xatirə kimi anır və bu xatirələrdə ən əziz yeri, əlbəttə ki, ona sevgi və qayğı ilə qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllim tutur. Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən ğözəl peşə olduğundan insanlar həmişə müəllimə hörmətlə yanaşmışlar. Müxtəlif dövrlədə minlərlə müəllim əməyi milləti cəhalətdən qurtarmış, müharibələrin qarşısı alınmış, insanlar elm və texnikanın gücü ilə texnika əsrinə gəlib çatmışdır. Müəllimlər şagirdlərin dərin və hərtərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Valideynlə bərabər, uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşür. Bu əməyin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar isə cəmiyyəti daha da inkişaf etdirir.

Ümummilli liderimiz Heydər Əliyev də həmişə müəllim haqqında xoş sözlər söyləmişdir. O, öz müəllimlərini həmişə minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürəkdolusu danışardı. Onun ölkəmizə rəhbərli etdiyi bütün dövrlərdə həmişə müəllimələrimiz diqqət mərkəzində olmuş, onların maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılması qayğısına qalınmışdır.

Aqillər deyib ki, uşaq beyni ağ vərəqə bənzəyir: Oraya nə yazılsa əbədi qalar. Demək sağlam fikirli, aydın düşüncəli, cəmiyyət üçün gərəkli övladlar böyütmək üçün o ağ vərəqə dəyərli amillər, xeyirxahlıq, vətənpərpərvərlik, saflıq-paklq, səmimiyyət bildirən hissləri hopdurmalı, düşüncələrinə ağı-qaradan seçməyi yazdırmalıyıq. Bu gün təmiz beyinlərə elə “ toxum ” səpməliyik ki, sabah özümüz utanmayaq. Bütün bunları öyrənmək üçün bir məkan – məktəb, öyrətmək üçün isə bir insan var – müəllim. Bu günün müəllimləri də daima şagirdlərinə vətənpərvərlik, xeyirxahlıq, hörmət və bu kimi insani xüsusiyyətləri aşılamalı

XIX əsrin birinci yarısına qədər Azərbaycanda yalnız mollaxanalar və mədrəsələr var idi. Bu məktəblərin də xüsusi bir dərs rejimi var idi. Əsas etibarı ilə bu tipli məktəblər Azərbaycan uşaqlarını öz ana dilindən uzaqlaşdırırdı, burada nə Azərbaycan, nə də başqa dillərdə heç bir fənn tədris olunmurdu. Lakin Bakıda XIX əsrdə ilk məktəblər açılması, müəllim ordusunun artması ilə ana dilimizin inkişafına da təkan verdi. Ölkədə cəhalətə demək olar ki son qoyuldu. Müəllim gününün qeyd edilməsinə dair isə ilk dəfə olaraq qərar 1966-cı ildə YUNESKO-nun qərarı ilə verilib. O

gündən indiyədək dünyanın 100-dən çox ölkəsində oktyabrın 5-i müəllim günü kimi qeyd edilir. Azərbaycanda isə müstəqillik əldə ediləndən sonra bu gün qeyd xüsusi edilməyə başlandı.

## Keçiriləcək tədbirlər:

Təqvimdə yer alan “ Bilik günü ” əsasən şagirdlərin, 5 Oktyabr Müəllim günü isə onlara bilik verən müəllimlərimizin bayramı hesab edilir. Əslində elə bili günüdə müəllimlərimizin sevincidi. Çünki hər hansı mövqeyə ucalmaq üçün müəllim əlinin altından keçmək lazımdır. 5 oktyabr Beynəlxalq Müəllimlər Günü ilə əlaqədar müxtəlif tədbirlər keçirmək kitabxanaların qarşısında duran əsas vəzifələrdəndir.

2008-ci ildə Bilik günü münasibətilə kitabxanamız tərəfindən təşkil edilən “ Bilik günü “ çərçivəsində “ I Uşaq kitabı – Bilik festivalı ” 5 gün davam edən tədbirin açılış günündə “ Təbiəti sevək və qoruyaq ”, “ Məktəb proqramına kömək ”, “ Tarix – keçmişdən gələcəyə ”, “Azərbaycan – yurdum mənim ”, “ Sənin maraq dünyan ” , “ Bilikli adamlar uzağı görər, cahilin zəhməti hədərdir, hədər ”, “ Təbiəti sevək, qoruyaq ”, “ Elm və texnika, inkişaf tarixi ”, “ Azərbaycanin elm və mədəniyyət xadimləri ” və s. başlıqlar altında sərgilər təşkil olunmuşdur. Həmçinin maraqlı viktorinalar, uşaqların müxtəlif nağıl qəhrəmanları geyimlərində çıxışları, da çox maraqlı idi. Ən yaxşı nağıl qəhrəmanı haqqında məlumat verən uşaqlar kitabxana tərəfindən mükafatlandırılmışdır. 5 gün davam edən festivalın kino günü, komputer günü və Heydər Əliyev adına müasir təhsil kompleksinin uşaqları ilə görüşü keçirilmişdir və sonda festivalın bağlanışı olmuşdur.

Bu tədbirlər uşaqlara şərəfli müəllim peşəsini sevdirmək, müəllimlərinə həmişə hörmətlə yanaşmağı, onları bu sahəyə həvəsləndirməyi qarşısına məqsəd qoymalıdır. Bunun üçün kitabxanada uşaqlarla icmallar, söhbətlər aparmaq onlara bu peşəni daha da sevdirər. Bu söhbətlərdə kitabxanaçı əməyi xüsusi rol oynayır. Belə ki o, nitqini düzgün istiqamətləndirməli, müəllimə xas insani keyfiyyətləri qabartmaqla uşaqların gözündə əsl müəllim obrazı canlandırmalıdır. Onları gələcəkdə də bu peşəni seçib davam etdirməyə həvəsləndirməlidir. Söhbəti belə vermək olar.

**Kitabxanaçı:** Təhsil prosesinin əsas siması müəllimdir. Müəllim peşəsinə yiyələnmiş hər bir şəxs uşaqları sevməli, şagirdləri ilə səmimi münasibət qurmağı bacarmalı, onlara bu peşənin sirlərini açmalıdır. Müəlllim bir peşə olduğu kimi
onu icra etmək üçün bir sıra qabiliyyətlər olmalıdır. Bu qabiliyyətlər sırasında akademik, **didaktik, ünsiyyət, konstruktiv,**

**təşkilatçılıq və iradi-emosional qabiliyyətlər** mühüm yer tutur.

***Akademik qabiliyyət*** **-** geniş və dərin biliyə malik olmaqda, elmin son nailiyyətlərini öyrənməkdə və şagirdlərə çatdırmaqda ifadə olunur.

***Didaktik qabiliyyət*** **-** bilikləri öyrətmə bacarığında, pedaqoji-metodik ustalığa yiyələnməkdə özünü göstərir.

***Müəllimdə ünsiyyət*** **-** (kommunikativ) qabiliyyəti - uşaqlarla, öz həmkarları və valideynlərlə düzgün ünsiyyət yaratmaqda, demokratik ünsiyyət üslubunda, hər bir uşağa fərdi yanaşma bacarığında ifadə olunur

***Konstruktiv qabiliyyət*** **-** isə özünün və uşaqların (kollektivin) fəaliyyətini düzgün planlaşdırmaqda, çətinlikləri əvvəlcədən duyub, onları aradan qaldırmağa hazır olmaqla ifadə olunur

***İradi-emosional qabiliyyət*** **-** müəllimin özünü, hisslərini düzgün idarə etməkdə, mülayimlik və ciddiliyi uzlaşdırmaqda, səbirli olmaqla ifadə olunur

***Pedaqoji qabiliyyətlər*** **-** insana hazır verilmir; onları gündəlik fəaliyyətdə, gərgin əməklə qazanmaq olar.

*Müəllimlik işinin xüsusiyyətlərindən danışarkən isə aşağıdakıları qeyd etmək olar :*

***1)*** Müəllim yüksək əqidə, məslək sahibi, müəllim — Vətəndaş olmalıdır. O, xalqın, Vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir. Xalq şairi B.Vahabzadə vaxtilə orta məktəbdə ədəbiyyat müəlliminin necə Hüseyn Cavid və onun ağır həyatı haqqında ürək yanğısı ilə, hətta ağlayaraq dərs keçməsini xatırlayır danışırdı.
***2)*** Müəllim yüksək mədəniyyətə və mənəviyyata malik olmalıdır. O, özündə zahiri və daxili mədəniyyəti, nəcib əxlaqi keyfiyyətləri (düzlük, ədalətlilik, xeyirxahlıq, humanizm, sadəlik və b.) cəmləşdirməlidir. Müəllim tərbiyə işinə özündən başlamalıdır, çünki özündə olmayan keyfiyyəti başqalarına verə bilməz.
***3)*** Müəllim dərin biliyə, erudisiyaya malik olmalıdır. Bilik müəllimin əsas silahıdır. Y.A.Komenski biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzədirdi. Belə " müəllim " uşaqlara dərin bilik verə bilməz. Zəif müəllim zəif də şagird, tələbə yetişdirər.
***4)*** Müəllim fənnini, peşəsini və uşaqları sevməlidir. L.N.Tolstoya görə, öz işini sevən müəllim yaxşı müəllimdir, bununla yanaşı uşaqları və fənnini sevən müəllim

isə əla müəllimdir. Pedaqogika tarixində uşaqları öz övladı kimi sevən, onlara ürəyini verən müəllimlər az olmamışdır Y.Korçak, V.A.Suxomlinski, A.S.Makarenko, Y.Talıbov, və b. belə müəllimlərdən biri olmuşdur

*5)* Müəllim yüksək nüfuz sahibi və uşaqlara nümunə olmalıdır. Dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək olur. Nüfuzu qazanmaq çətin, itirmək isə asandır: yersiz hərəkət, ədalətsiz münasibət, ehtiyatsız söz müəllimi nüfuzdan sala bilər. Buna görə də, hər bir müəllim sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

Müəllim sözü müqəddəs deyil müqəddəs olan müəllimlikdir.Yəni müqəddəs olanlar öz vəzifələrini layiqincə yerinə yetirən insanlardır. Müəllim gənc nəslin formalaşmasında böyük rol oynayır. Uşaq ikən bizə qələm tutub yazmağı öyrədən, hər il keçdikcə öz bildiklərini bizimlə bölüşən dəyəli varlıqlardır müəllimlər.

Beləliklə əziz uşaqlar bu gün sizinlə şərəfli peşə olan əsl müəllimin xüsusiyyətlərini öyrəndik. Birdaha müəllimlərimizi gəlin təbrik edək, onlara can sağlığı arzulayaq. Sonra kitabxanaçı uşaqlarla sual-cavab edir. Əvvəlcədən hazırladığı sorğunu onlara təqdim edir. Kitabxanada keçirilən kütləvi tədbirlərin ən maraqlısı sual-cavab gecələri və viktorinalardır. Bu cur tədbirlər canlı olaraq sual-cavab şəklində təşkil edilir. Bu da oxucu marağının üzə çıxmasına səbəb olur.

**Sual:** Müəllimlik niyə şərəfli işdir;

**Cavab:** Çünki o, öz həyatını xalqın gələcəyinə həsr edir;

**Sual:** Müəllimlik niyə məsuliyyətli işdir;

**Cavab:** Çünki o, ən qiymətli kapital olan insanla işləyir, bu işdə isə səhvə yol vermək olmaz;

**Sual:** Müəllimlik niyə çətin və mürəkkəb işdir;

**Cavab:** Çünki müəllimin fəaliyyət obyekti olan insan özü mürəkkəb və dəyişkən, pedaqoji proses isə çoxcəhətli və çətindir;

**Sual:** Müəllimlik niyə yaradıcı işdir;

**Cavab:** Çünki o, hazır göstərişlərlə, reseptlərlə işləyə bilməz. Hər bir konkret halda vəziyyəti düzgün təhlil edib, uğurlu çıxış yolu tapmaq, məsələlərə müstəqil və yaradıcı yanaşmaq, qeyri-standart qərarlar qəbul etmək tələb olunur.

Müəllim şəxsiyyəti

**Sual:** Müəllimin başlıca şəxsi keyfiyyətləri dedikdə nə başa düşülür:

Kitabxanada uşaqlar arasında " Mənim sevimli müəllimim " ; Mənim ilk müəllimim " adlı inşa - yazı müsabiqəsinin keçirilməsi və sonda qalib uşaqları kitabxana tərəfindən mükafatlandırılması uşaqların yazı qabiliyyətinin

yaxşılaşmasına, fikirlərinin daha aydın ifadə etmək bacarığının inkişafına kömək edər.

Müəllim mövzusu geniş və hərtərəfli mövzudur. Bunlardan başqa kitabxananın nağıl otağında məktəbyaşlı uşaqlar üçün daha anlaşıqlı olan nağıl saatı və səhnəciklər də təşkil edə bilərik. “ Kamal bağçası ” adlı hekayəni uşaqlarla nağıl şəklində qura bilərik.Bu uşaqlarda daha da maraq doğurardı.

**Kitabxanaçı:** Günlərin bir günü Səyyahın yolu bir bağçaya düşür. Bu bağça elə bir bağçaymış ki, güllər bir-birindən gözəl, rəngarəng və ətirli imiş. O bağçanın qapısında gözəl, incə bir xanım dayanıbmış. Səyyah xanımı görüncə ona yaxınlaşıb adını soruşur. Xanım adının sevgi olduğunu deyir. Səyyah xanımın burada kiminlə yaşadığını soruşur. Sevgi həyat yoldaşı Elmlə birgə yaşadığını deyir. İndi onun bağçada işlədiyini ona söyləyir. Səyyah maraqlanır elm bağçasını gəzmək istəyir. Sevgi icazə verir amma “ ehtiram dediyiniz çarıqları geyin zəhmət olmasa ” çünki bağçamızı gəzmək üçün bu vacibdir. Buradaki hər bir gülün xüsusiyyətlərinə çox hörmətlə yanaşmalıyıq, bizlərdə onlara yiyələnməyə çalışmalıyıq. Ehtiramlı Bağçamızda bu çox vacibdir. Elə bu vaxt Elm də gəlib çıxır və birlikdə bağçanı gəzməyə başlayırlar. Səyyah bağçanı gəzdikcə çox təəcüblənir və buranın çox fərqli bir yer olduğunu görür. Xoşbəxtlik, səbr, xeyirxahlıq, ədalət, şəfqət, iradə, və s. bu qədər zəngin növdə, fərqli güllər. Hər biri özünəməxsus qayğı sevgi ilə becərilib. Səyyah həyəcanla soruşur: Heç olubmu ki, bu güllərin adlarını qarışıq salasınız. Elm cavab verir: Olur, amma bu an sevgi köməyimə gəlir. Axı o burdakı bütün çiçəkləri sevgi ilə əkmişdi. Sevgi ilə suvarılan hər yerdə isə gözəlliklər bitir.

**Səyyah yenə maraqlandı:** Güllərin böyüyüb, boya-başa çatdığı bu torpağın bəs xüsusiyyəti nədir?

**Elm:** Bu torpağı bizə Vəfa adlı dostumuz gətirir, və onu mərhəmət ya da Şəfqət gülünün altına səprik beləcə torpağımız, mərhəmət, sevgi ilə güclənir gül bağçamız gözəl çiçəklərlə, zənginləşir

**Səyyah yenə maraqla soruşur:** Heç olur ki, gülü gülə calaq edəsiniz?

**Elm yenə izah edir:** Olur əlbətdə. Bax Xəyal gülünü həqiqət gülünə calaq edirik Ümid meydana gəlir. Ümid isə sabah yaşamaq üçün çox gərəklidir. Hikmət gülünü ağıla calaq edəndə İradə yaranır. İradəsiz adam isə həyatda yer tapa bilməz. Ən gözəl Ədalət gülünə Qüdrət gülünü calaq etməsək ədalət aciz qalar, küsər, saralıb solar. Qüdrətlə Ədalət bir yerdə olmayanda isə torpaqda zülm baş alıb gedər. Müharibələr yer üzünü bürüyər. Uşaqlar ədalətsizliyin qurbanı olar. Səyyah yenə soruşur : Calaqları sizmi edirsiniz?

**Elm:** Mən çubuqları hazırlayıram, amma onları calaq edən Sevgidir. Sevgi olmasa heç bir əkdiklərimizin bəhrəsi xeyiri olmaz.

**Səyyah:** Bəs üstünlük verdiyiniz güllər varmı?

**Elm:** Əslində mən bütün gülləri sevirəm. Sevgi isə - Mülayimlik üçün – O mənim beş hissimdir Səmimiyyət – mənim əxlaqım, Təvazö isə – mənim ədəbim, Ümid mənim qanımdır ” dir deyir. Bunlar olmasa elimli bir insan da formalaşmaz. Həyatda isə elmdə əxlaq da sevgi də mərhəmət də bizim yol yoldaşımız olmalıdır.

Səyyah Elmin dediklərinin təsiri altında bağçadan uzaqlaşır. Xeyli yol getdikdən sonra bir qocaya rast olur və gördüklərini ona danışır. Qoca səyyahın dediklərini dinlədikdən sonra deyir. Oğul bunun nə bağçası olduğunu bilirsənmi? Səyyah deyir Yox. Müdrik qoca astaca başını yelləyərək cavab verir: Bu kamal bağçasıdır. Elm bilik olan yerdə həmişə belə çiçəklər bitər. Elmi biliyi isə kamalımız ağlımız sayəsində qazanırıq. Kamal bağçasına baş vurmaq üçün müəllim bizə kömək olur. Şeir müsabiqəsinin keçirilməsinin də kitabxanada xüsusi əhəmiyyəti vardır. Belə tədbirlərdə uşaqlar özlərinin şeir demək bacarığını nümayiş etdirir. Bu cür tədbirlər adətən yuxarı yaş qrupu uşaqları arasında keçirilir. Müsabiqədə 5 oktyabr Beynəlxalq Müəllim günü ilə bağlı aşağdakı şeirləri verə bilərik. Sonda yaxşı şeir deyən kitabxana müdriyyəti tərəfindən kiçik mükafatlandırılır:

## Müəllim

**İbrahim Yusifoğlu:**

Saflığa bələnib hər müdrik sözü.
Bizə ömür boyu dayaq durubdur.
İşıqlı zəkası, ağıllı sözü
Ömür yolumuza mayaq olubdur.

Anamı,Vətəni sevin - deyibdir,
Odur boynumuza böyük haqq qoyub.
Bizə ana yurdu o sevdiribdir.
Biz ona borcluyuq bir ömür boyu.

**Anam, müəllimim bir də ustadım.**

Üç insan əzizdir mənə dünyada,
Anam,müəlliməm bir də ustadım.
Hər an baş əyirəm sizdəki ada,

Anam, müəlliməm bir də ustadım.

Bütün qazandığım uğurlar üçün
Sizlərə borcluyam, sizlərə bütün.
Ruhən yanımdasız, hər saat, hər gün,
Anam, müəllimim bir də ustadım.

Nə qədər böyüyüb yaşlansam da mən
Sizin qarşınızda uşağam həmən.
Sizə baş əyirəm qəlbən ürəkdən,
Anam, müəlliməm bir də ustadım.

## Müəllim ömrü

Ən parlaq ulduzdu, nur saçan aydı,
Dalğalı dənizdi, ləpəli çaydı
Ömrü ömürlərə paylanan paydı,
Safdı. müqəddəsdi müəllim ömrü!

Həlimlik gözünün qarasındadı,
Əzizlik qəlbinin parasındadı.
Hər an şagirdləri arasındadı,
Kövrəlmiş bir səsdi müəllim ömrü!

Günəş hərarətli, dağ vüqarlıdı.
Saçları dlğındı, bəyaz qarlıdı.
Övladlı, nəvəli gözəl yarlıdı,
Mehribanbir kəsdi müəllim ömrü.

Həyatda hər zaman gözləri toxdu,
Ürək ovsunlayan sözləri çoxdu.
Dünyanın varında gözləri yoxdu.
Odlu bir nəfəsdi müəllim ömrü!

Ən parlaq ulduzdu, nur saçan aydı,
Dalğalı dənizdi,ləpəli çaydı.
Ömrü ömürlərə paylanan paydı.
Safdı, müqəddəsdi müəllim ömrü.

Teatrlarımızda tamaşaya qoyulan əsərlərə baxış və onların kitabxanada müzakirəsini keçirmək də çox əhəmiyyətli tədbilərdəndir. Bu zaman uşaqlar əsəri təkcə oxumaqla kifayətlənmir, canlı olaraq səhnəyə qoyulmuş əsərdə movzunu daha yaxşı dərk edirlər. Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrında müəllim şagird mövzusunda son illərdə səhnəyə qoyulmuş Əli Əmirlinin “ MSS ” ( Mən Səni sevirəm ) adlı ikihissəli məktəbli dramına uşaqlarla bir yerdə baxış keçirə bilərik. Bunun üçün kitabxana müdriyyəti tərəfindən ətraf məktəblərlə əlaqə saxlanılır. Sinif rəhbərləri ilə birgə yuxarı sinif şagirdləri teatr zalında tamaşaya baxış keçirilir. Əsərin müzakirəsi isə kitabxanada sonrakı gün keçirilir. Müzakirə əsəri qısa yadasalma ilə başlayır. Əsərdə on bir illik məktəb həyatını başa vuran uşaqların məktəbdə gördüyü ədalətsizliklərə dözə bilmədiklərini verilir. Şərəfli müəllim adına ləkə gətirən şəxs isə burada Qətibə müəllimənin timsalında verilir. Onlara yol göstərən, örnək olan isə Sabah müəllimə olur. Sonda isə elə təəssürat yaranir ki, şərin təmsilçisi Qətibə müəllimə xeyirin timsalı Sabah müəllimə üzərində qələbə çalır Amma Sabah müəllimənin dili ilə bu qələbə sadəcə görüntüdür. Haqq ədalət qələbəsi isə görüntüdə olan deyildir.

**Kitabxanaçı :** Uşaqlar baxdığımız əsərdə Sabah müəllimənin qələbəsini hansı məqamda hiss edirik?

Bu uşaqların öz aralarında “ molla ” deyərək adlandırdığı Tofiqin dilindən sonda monaloqundan hiss edilir. Burada hansı nəticəni çıxarmaq olar?. Yenədə hər məqamda Sabah müəllimə qazanmış olur. Şagirdlərinin duaları onu hər zaman qoruyacaq.

**Tofiq:** “ Mənim indiki dualarım isə qadınlar içində mələk, müəllimlər arasında ali məqamda olan Sabah anamızadır. O, dinsiz-imansızlar arasında, rəzillər içərisində müəllim adını uca tutmağı bacardı, müəllim peşəsinin istənilən şəraitdə şərəfli olduğunu sübut elədi "

Sonluq: Sabah müəllimə məktəbdən getsədə şagirdlərin qəlbində əbədi qalir. fikri ilə bitir.

“ **Hansı peşəni seçsəmdə müəllimə borcluyam** ” adlı sərgini isə belə verə bilərik:

## *Hansı peşəni seçsəmdə müəllimə borcluyam:*

Bu başlıq altında kitabxanada sərgi təşkil edə bilərik. Şəkillərin rəngli, uşaqların dili ilə seçilməsi daha da maraqlı və cəlbedici olar. Burada müəllimlərə kömək məqsədi ilə nəşr edilən qəzet və jurnalları qoya bilərik. Həmçinin Müəllim haqqında deyilmiş sitatlarıda burada vermək olar.




**Sitatlar:**

Əgər məndən soruşsalar ki, ən şərəfli sənət hansıdır, mən o zaman iftixarla belə deyərdim: Müəllimlik!

**Həsən bəy Zərdabi**

Müəllimin evi kitabxanadır. Dovləti kiçik şagirdləridir, mükəlləfiyatı isə qara məktəb mizləridir, sazı və nəğməsi məktəb şagirdlərinin sədasıdır, istirahəti dəftərlərin təshihi, qazancı isə millətin məhəbbət və etibarıdır.

**Sultan Məcid Qənizadə.**

Müəllimlik ən çətin və ən məsuliyyətli peşədir. O: gələcəyi yaradır.

**Q. Bereqovoy :**

Müəllimin sözlərini təkrarlamaq  - onun davam etdiricisi olmaq demək deyildir.

**D.İ. Psarev.**

Kitabxanada ətraf məktəblərdə çalışmış qocaman müəllimlər ilə görüş təşkil etmək olar. Görüş yeri kimi kitabxananın oxu zalı seçilir. Zal sadə bir tərzdə sinif otağını xatırladacaq şəkildə səliqəli qurulur.

Tədbirə məktəb müəllimləri oxucular, məktəblilər dəvət edilir. Giriş sözü ilə kitabxananın direktoru görüşü açaraq qonaqları və görüşün səbəbkarları müəllimlərimizi salamlayır.

Sonra söz müəllimlərə verilir. Onlar bu günkü şagirdlərə öz xatirələrindən, söhbət açırlar.

Kitabxanada abunə olduğumuz Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən nəşr olunan “ Azərbaycan müəllimi ”; “ Təhsil problemləri ”;

qəzetlərinin həmçinin müəllimlərə kömək məqsədi ilə çap edilən “ Kurrikulum ”, “ Azərbaycan məktəbi ” elmi-metodik jurnalllarının qısa icmalllarını keçirə bilərik. Buraya oxucular və müəllimləri dəvət edilir. Jurnal və nəşrlər müəllimlərə kömək məqsədi ilə nəzərdə tutulduğundan icmalda bəzi müəllimləri maraqlandıran suallar üzərində qurulur. İcmallrın hərtərəfli maraqlı olması üçün bir arada dəvət edilən müəllim və oxucular arasında yaş fərqini nəzərə alınmalıdır. Nəşrdə müəllimlərlə yanaşı valideyinlərə uşaqlarla necə işləmək onlara təlimə həvəsləndirmək üçün tövsiyələr verilir. Gündəlik nəşrlərdən “ Azərbaycan müəllimi ” qəzetinin ilk səhifələrində müxtəlif təhsil yenilikləri, yeni açılmış uşaq bağçaları, məktəblər haqqında məlumat verilir. Elmi-metodik jurnallarda isə müəllim şagird münasibətinin necə qurulması, onların təhsilə necə həvəsləndirilməsi, müəllimlər üçün müxtəlif metodik vəsaitlər dərc edilir.

Kitabxanada mövzu ilə bağlı bir əsərin səhnələşdirməsinin uşaq psixologiyasına təsiri böyükdür. Uşaq yazıçımız Cahangir Məmmədovun müəllim və şagird sevgisi haqqıda yazılmış “ Altıyaşlılar ” kiçik hekayəsini ssenarisini verə bilərik. Bu səhnəcikdə şagirdlərinin sevgisini qazanmış Zərqələm müəllimənin şagirdlərin öz müəllimlərini necə sevmələri, ancaq Zərqələm müəllimənin onlara dərs deməsini istəmələri, müəllimələrinin sağalmaları üçün əllərindən gələni etdikləri xoş təsir yaradır.

Uşaqların ifasında görkəmli bəstəkar Oqtay Zülfüqarovun Rəfiq Zəkanın sözlərinə bəstələdiyi “ ***Məktəbə yazdırsana*** ” mahnısı səslənir.

İndi mənim altı yaşım var ana
Səndə məni məktəbə yazdırsana.
Yazmağı səndən təzə öyrənmişəm,
Saymağı səndən yüzə öyrənmişəm.
Çox rəqəmi çox sözü öyrənmişəm.
Tulla oyuncaqlarımı bir yana,
İndi mənim altı yaşım var ana
Sən də məni məktəbə yazdırsana
Ay anacan bax küçəyə bax ora,
Dərsə gedən qızlara oğlanlara
Çantamı ver qoşulum onlara.
Sonra uşaqlarla verib əl-ələ.
Dərsə gedim mən də bugündən belə

*Məktəbin idman zalını xatırladan altıyaşlılar üçün nəzərdə tutulmuş bir otaq. Burada balaca skamyalar var. Uşaqlar skamyalarda qəmli halda oturmuşlar. 5-6-cı sinif şagirdi Yusif əlində topu oynada-oynada onlara yaxınlaşır.*

**Yusif:** Hə, indi gəlin voleybol oynayaq. Di qalxın ayağa...Sizinlə deyiləm?

(Topu uşaqların üstünə atır.Heç kəs tutmur.Yusif fikirli halda gəzişir).Voleybol istəmirsiniz...Yaxşı, gəlin futbol oynayaq. (*Heç kəs yerindən tərpənmir)* Futbolda istəmirsiniz... Bəs nə istəyirsiniz, nə?

**Afaq:** Zərqələm müəlliməni istəyirik...

**Yusif:** Zərqələm müəllimə xəstədir. Dünən gəlməyib, bu gün də gəlməyəcək. Direktor xahiş edib ki, 2-3 saat mən sizinlə məşğul olum. Özünüz bilirsiniz ki, mən məktəbin 9 nömrəli hücumçusuyam. İndiyəcən 16 dəfə qol vurmuşam! Siz isə mənə hörmət etmirsiniz... (*Yalvarır)*. Uşaqlar xahiş edirəm gəlin oynayaq. Direktor gəlib görsə ki, boş-bekar oturmuşuq, hamımızı danlayacaq.

**Sona:** Biz Zərqələm müəllimə ilə oynamaq istəyirik...

**Yusif:** Zərqələm müəllimə ilə futbol? Voleybol? (*gülür*)

**İlqar:** O, bizimlə elə maraqlı oyunlar oynayır ki, heç darıxmırıq.

**Rafiq:** Zərqələm müəllimə dərsi çox maraqlı danışır.

**Afaq:** O bizə dadlı-ləzəttli xörəklər bişirtdirir.

**Sona:** Yataq otaqlarımızı elə qəşəng bəzəyib ki!

**Yusif:** Uşaqlar! Uşaqlar, bunları mən bilirəm. Zərqələm müəllimə mənədə dərs deyib. Onu hamımız sevirik. İndi neyləmək olar. Fikriniz nədir? Elə oturub, darıxacaqsınız?

**Afaq:** Biz müəllimənin öyrətdiyi dərsi təkrar edəcəyik.

**Eldar:** Mən onun əzbərlətdiyi şeiri bərkdən oxuyacağam

**Sona:** Mən nağıl danışacağam.

**Rafiq:** Mən tapmaca deyəcəyəm.

**Yusif:** Nağıl, tapmaca, şeir. Bəs idman?

**Afaq:** Sən qorxma, get sinfə dərsini öyrən. Direktor, müəllim gəlsə özümüz cavab verəcəyik.

**Yusif:** (*onu yamsılayır*) Direktor müəllim! Yox bir dərs hissə müdiri müəllim, zavxoz müəllim. (*Deyinə deyinə getmək istəyərkən Zərqələm müəllimə ilə üzləşir.Təəcüblə*) Müəllimə siz gəldiniz? Bəs... bəs...

**Zərqələm müəllimə:** Gəlmişəm,Yusif.Çox sağ ol ki, mənim şagirdlərimlə məşğul oldun, onları darıxmağa qoymadın. (*Yusif başını aşağı salıb gedir. Uşaqlar müəlliməni dövrəyə alırlar.)*

**Afaq:** Müəllimə bizi qorxutdular ki, siz bu gün də gəlməyəcəksiniz.

**Eldar:** Hazırlaşırdıq, ki evinizə gedək.

**Sona:** Sizin üçün yaman darıxmışıq,müəllimə!

**Rafiq:** Müəllimə, daha xəstələnməyin də, nə olar.?

**Zərqələm müəllimə:** (*Gülüb onları qucaqlayır*) Mən də sizin üçün darıxmışam.Həkim evdən çıxmağıma razı olmurdu. Amma dözə bilmədim.

**Afaq:** Eybi yox, biz Sizi indi sağaldarıq.

**Zərqələm müəllimə: (**Təəcüblə) Necə?

**Afaq:** Oturun bax burda. (Balaca termosda çay süzüb. ona verir. Bu çaya kəklikotu, sarıçiçək qatmışam. Onu içsəniz, canınızda nə soyuqdəymə var, çıxacaq

**Eldar:** Eh, bəlkə müəllimənin xəstəliyi soyuqdəymə deyil, ürək ağrısıdır?Nənəm bu dərmanı qaraçöhrə ağacından hazırlayıb. Deyir kim içsə, o dəqiqə sağalar.!

**Rafiq:** Yox, yox müəllimə, mən üzünüzün rəngindən görürəm ki, qanınız azdır. Ona görədə bax bu dərmanı içməlisiniz. Əvəlik otunun kökündən düzəldilib.

**Sona:** Anam mənə də bir dərman verib. Deyir, kimin ciyəri ağrıyırsa, onu sağaldar.

Amma... adını deməyə utanıram.

**Afaq:** Adı nədir? Pişikotu?

**Eldar:** Bəlkə "Pişiknanəsi" dir?

**Rafiq:** Yox yəqin ki " atılbatıl " dır.

**Sona:** Yox adı " Öküzboğan " dır...

( *Hami bərkdən gülür*)

**Afaq:** Bir dərman ki,öküzü boğur, onu adama neşə vermək olar?

**Zərqələm müəllimə:** Gülməyin uşaqlar, adı qəribə olsada özü ciyər üçün çox xeyirlidir.

**Eldar:** Bəs nə üçün adı " öküzboğan " dır ?

**Zərqələm müəllimə:** Ona görə ki yarpaqları bərkdir, özü də tikanlıdır.Öküzboğan çəmənlərdə, dağlarda bitir.İyun ayında sarı çiçəklər açır, beş yarpağı olur.Avqust ayında isə meyvəsini yığıb dərman hazırlayırlar.

**Afaq:** Müəllimə indi siz hansı dərmanı içəcəksiniz?

**Zərqələm müəllimə:** Heç birini. Amma sizin bu yaxşılığınızı ömrüm boyu unutmayacağam! Mənim əzizlərim...Mənim istəkli balalarım! Sizi görən kimi sağaldım.Elə gümrah, şən oldum ki, hamınızla əl-ələ tutub oynamaq istəyirəm.

(*Musiqi*)

(*Oyun havası çalınır. Müəllimə və uşaqlar rəqs edirlər)*



**Müəllimə verilən ictimai qiymət:**

Görkəmli xadim Nəriman Nərimanov xalq müəllimlərinə verdiyi tövsiyyələrdən birində yazırdı: “ ...vətənin xoşbəxtliyi onun cavanlarının yaxşı tərbiyəsi ilə bağlıdır... Yaxşı tərbiyə isə insanın əqlini və əxlaqını gözəl pak şeylər əxz etməyi öyrətməkdən, ürəyini və vicdanını pisliklərdən çəkindirməkdən ibarətdir.

Heydər Əliyev müəllim əməyini yüksək qiymətləndirərək bildirir: " Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq ".

## Ədəbi-bədii gecə:

Kitabxanada mövzu ilə bağlı keçirilən ədəbi-bədii gecələrin də xüsusi rolu var. Sizə “ **Uzat, təbaşirli əlindən öpüm** ” adlı ədəbi-bədii gecənin ssenarisini təqdim edirik.

Tədbirə müəllimlər məktəblilər, ziyalılar, və bir sıra qonaqlar dəvət edilir.

( Səhnədə Heydər Əliyevin müəllim haqqında soylədiyi fikirlərdən biri yazılmış plakat asılıb, və müxtəlif güllərlə dekorasiyalarla bəzədilir. Həmçinin tədbir

zamanı müəllim əməyini əks, əməkdar müəllimlərimizin fəaliyyətindən bəhs edən slaydlar nümayiş etdirmək olar. )

Gecə Aygün Səmədzadənin " Məktəb İlləri " mahnısı ilə başlayır.

**I aparıcı:**

Saflığa bələnib hər müdrik sözü.
Bizə ömür boyu dayaq olubdur.
İşıqlı zəkası, ağıllı sözü
Ömür yolumuza mayaq olubdur.

**II aparıcı:**

Anamı, Vətəni sevin - deyibdir,
Odur boynumuza böyük haqq qoyub,
Bizə ana yurdu o sevdiribdir.
Biz ona borcluyuq bir ömür boyu

**I aparıcı:** Salam əziz uşaqlar, hörmətli qonaqlar , müəllimlər.
görəki, biz onların vasitəsi ilə dünyanı dərk edirik.

**II aparıcı:** Hər zaman övladları bildiyi şagirdlərinin sevincinə sevinib, kədərinə kədərələnən müəllim ömrü bizlərə əsl örnəkdir. O, elmin fəzilətini şagirdlərinə daddıran bir insandır. Adi insandan fərqi isə şagirdlərinə qəlbində daşıdığı sevgisidir. Bu sevgini isə nə qədər paylasada tükənməz. Uca müəllim adına ləkə gətirən əməllərdən kənar olar . Müəllim - həmçinin şagirdlərinin dili ilə desək :

*( Səhnədə uşaqlar görünür )*

**I oxucu:** **Müəllim** - ana kimi şəfqətli, ata kimi güvənli, üstün əxlaqlı, dərin düşüncəli, həssas qəlbli, həlim davranışlı bir insandır.

**II oxucu:** **Müəllim** – elmin sirr ünvanını düzgün bilən

**III oxucu:** **Müəllim** – həqiqətin içərisinə varan, orada ucalan, orda yüksələn.

**IV oxucu:** **Müəllim** – bilgisi düz, sözü düz, mərifəti düz olandır

**V oxucu:** **Müəllim** – elmin qapısını düz tanıyıb, oradan elmin şəhərinə - xəzinələr sarayına varandır.

**Müəllim** – sinəsi xəzinə, baxış pəncərəsi qəlbin gözü, seyr etdiyi məkan yüksəkliklər, dayağı fərasət olandır.

**VI oxucu:** **Müəllim** – Yerdən aləmlərə varandır.

**Müəllim** – mərifətə götürən nur, qanad, inam taxtında əyləşdirən böyüklükdür.

**VII oxucu:** **Müəllim** – sevgini yaşayan – sevgini öyrədən sevdalıdır.

**II aparıcı:** **Müəllim –** adi söz olmayıb, müqəddəs peşədir. Əsl müəllim bir günəşdir. Ürəyinin istisini beyninin odunuheç kəsdən əsirgəməyən bir günəş. Müəllim sənəti bütün sənətlərdən daha üstündür. O, bizə hərf öyrədir, danışmaq öyrədir, söz öyrədir Gözlərdə ifadə olunan hissləri duyan, sədanı “ eşidən ” müəllim ömrünə alqış. Bu ömür sinif otaqlarında dərs dedikcə heçə dönmür daima təzələnir. Canlı ulduz olub daima müxtəlif bölgələrimizdə parlayaraq, yerindən asılı olmayaraq hər bir şagirdə eyni yanaşırlar.

**Aparıcı üzünü uşaqlara tutur:** Uşaqlar dovlət xadimindən tutmuş hər bir sənət sahibi – müəllimlərinə borcludur. Çünki hər birimizə qələm tutub hərf yazmağı müəllimimiz öyrətmişdir. Ona görədə onları incitməməliyik. Dərslərimizi yaxşı oxumalıyıq ki, gələcəkdə onların zəhmətlər hədər getməsin. Çünki onlar bizə təkcə müəllim deyil ana kimi qayğı göstərir balaları kimi də sevirlər. Müəllimlərinizin sözünə qulaq asırsınızmı?
Afərin uşaqlar.

*Ədəbi bədii gecədə mövzu ilə bağlı əsərlərin uşaqlarla səhnələşdirməsinin xususi əhəmiyyəti vardır. Əli Əmirlinin müəllim – şagird – valideyn münasibətlərindən bəhs edən “ MSS – Mən Səni Sevirəm” 2 hissəli məktəbli dramı son illərdə (2009) bu mövzusunda yazılmış ən gözəl əsərlərdəndir. Yuxarısinif şagirdləri tərəfindən səhnələşdirilmiş əsərdən bir parçanı sizə təqdim edə bilərik.*

Səhnə açılır. Hər yerdə, yazı taxtasında “ M.S.S. ” yazılar vurulub. rəqs mahnısı sədaları altında uşaqlar səhnədə bir-biri ilə söhbət edir. Sabah müəllimə içəri girir:

- Əyləşin. Bu gün sizi yoracam . 3 dərs dalbadal dərsimiz olacaq.
- Gənc bir müəllimə məni sabahdan bir müddət əvəz edəcək. Mənim bir az müalicəyə ehtiyacım var.

**Uşaqlar:** Allah şəfa versin.
Sabah müəllimənin gözü yazılara sataşır “ Bu nədir ” belə
Müəllim əyləşir, dərs başlayır.

**Sabah:** Müəllimlər sizdən çox gileylənir. Deyəsən məsələ çox ciddidir.

**Lalə:** Onlar bizi istəmirlər ona görə.

**Sabah:** Mənim həmkarlarım haqqında belə fikirlər söyləməyin. Özü burada olmayan adam haqqında danışmaq qeybətdir. İndiki halda rüşvət verənlərin günahı daha böyükdür. Bu gün cəmiyyıtimizdə sosial müdafiəsi ən zəif olan təbəqə müəllimədir. Biz müəllim ailəsi varlı ola bilməz, amma bu kasıbçılıq deyil, Kasıb gözü doymayandır.

( *Uşaqlar bir nəfər kimi əl çalırlar. Sabah çaşqınlıqla ona baxır* )

**Sabah:** *Sakit olun.dərs keçənlərə mane olursuz.*

**Tofiq:** *Biz sizi ssseee…*

**Lalə:** *Sevirik*

**Orxan:** *Divarlarda nə qədər boş yer var EMESES yazacağıq.*

**Sabah:** *Yaxşı sevirsiniz sevin.amma divarların nə taxsırı var?*

**Səməd:** *Onun zamana ehtiyacı var.*

**Reyhan:** *Biz hamımız onu sevirik, məhəbbətimizi bildirmək üçün M.S.S. yazırıq.Çoxları elə bilir ki, M.S.S." mən səni sevirəm deməkdir…"*

**Qərib:** *Bəs nədir?*

**Reyhan:** *M.S.S. – Mən Sabahı sevirəm deməkdir.* Mənim arzularım çoxdur bu yazıda ən böyük arzum Sabah müəllimənin səhhəti ilə bağlıdır. Əgər bu dünyada haqq ədalət deyilən bir şey varsa qoy Sabah müəllimə sağalsın.

**Orxan:** **(** *Gəlib Reyhanın əlindən tutur.* **)** Mən bu dünyada çox adamı sevirəm. Arzum onlar üçün yaxşı oğul, insan, ər, əsl kişi, vətənim üçün əsl vətəndaş olmaqdır, ancaq bu yazımda sevdiyim iki insanın adını çəkəcəyəm, birinin adını ürəyimdə deyəcəyəm, çünki o mənim yanımdadır. O birisinin adı isə " Mən Sabahı sevirəm! " Ən böyük arzum onu sağalmış, sağlam görməkdir.

**Səməd:** Mən iki qadını sevirəm: biri anamdır, biri müəlliməm Sabah. Onu yenidən sinfimizdə görmək istəyirəm.

**Lalə:** Arzularımı yazsam bir kitaba sığmaz.Ona görə qələmi qoyuram.Kimdi mənim arzularımı vecinə alan. Bu dünyada haqq-ədalət olsaydı pis adamları

**Qətibə müəllimə:** **(** pıçıltıyla **)** Məni deyir?

**Lalə:** Sabah müəlliməni ölüm yatağına salmazdı.

**Nazı:** Məndə yaxşı nə varsa Sabah müəllimədəndir. O mənə necəinsan olmağı öyrədib. Allah ona şəfa versin.

**Tofiq:** Bismilləhirrəhmanirrəhim! Mənim bu dünyada bir arzum, bir istəyim var. Allahıma yaxın olum, əsl müsəlman ömrü yaşayım inşallah!

Mənim indiki duam isə qadınlar içində mələk, müəllimələr içində ali mərtəbədə duran Sabah anamızadır. O müəllim adını uca tutmağı bacardı. ( dua edir. ) İlahi eşit sənə ibadətdə olan aciz bəndənin səsini, qəbul et dualarımı.
Şəfa ver Sabah müəlliməyə…

*(Uşaqlar ayrılıqda yazı taxtasına yaxınlaşır və iri hariflərlə yazır M.S.S.)*

*Hami ( xorla ) Mən Sabahı sevirəm… Mən Sabahı sevirəm*

*Musiqi çalınır*

**I aparıcı:** Ölkəmiz müstəqillik əldə etdikdən sonar təhsil sahəsinə müəllimə münasibət də köklü surətdə dəyişdi. Onlara dövlət tərəfindən göstərilən diqqət və qayğı artırıldı. Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə bir neçə ildir ki, " İlin ən yaxşı müəllimi " və " İlin ən yaxşı məktəbi " müsabiqələri keçirilir. Bu da maddi cəhətdən müəllimlərin vəziyyətinin yaxşılaşdırılmasına, məktəblərin maddi-tədris bazasının möhkəmlən – dirilməsinə kömək edir.

**II aparıcı:** Bu gün biz də öz qəlbimizin hərarətini tər çiçəklər kimi bütün müəllimlərə veririk, onlara ömürlük fərəh arzulayırıq. Sevimli müəllimlər! Peşə bayramınız mübarək. Hər birimizin sizə ehtiyacımız var, bizlər sizin əlinizin bərəkəti ilə kamala doluruq. Biz böyüyürük, siz yaşlanırsız. Amma nə qədər böyüsək də yaddaşımızda əlimizdən tutub bizə yazmağı öyrədən müəllim kimi əbədi qalımısınız. Sizin şagirdləriniz sizin sərvətinizdir. Həmişə şagirdlərinizin xoş sorağını alasınız.

*SON*

**İstifadə edilmiş ədəbiyyat:**


1. Əmirli Ə. Hasarın o üzü. - Bakı, 2010, 500 səh.
2. Füyzat. – 2007. - №4.
3. Füyzat. – 2009. - №6.
4. Füyzat. – 2011. - №4